

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 14 (20.915)

24 yanvar 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Yanvarın 23-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə edildi. Siyasi, iqtisadi, energetika, sərmayə qoyuluşu, tikinti və bank sektorunda əməkdaşlığın böyük potensiala malik olduğu bildirildi və bu sahələrdə əlaqələrin daha da genişlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycanın sürətli iqtisadi inkişafının ikitərəfli əlaqələrimizin daha da genişlənməsi üçün yaxşı imkan yaratdığı qeyd edildi, qarşılıqlı investisiyaların bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Niderland Krallığının Baş naziri Mark Rutte ilə görüşmüşdür.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşmüşdür.

# Babək rayonunda yeni sosial obyektlər istifadəyə verilmişdir

35 il bundan əvvəl ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılan Babək rayonu bu gün inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Son illər yeni inzibati binaların və sosial obyektlərin istifadəyə verilməsi rayon mərkəzinin simasını tamamilə dəyişmişdir. Artıq abad yolları, təmiz və işıqlı küçələri, yaraşıqlı binaları ilə seçilən Babək qəsəbəsi müasir şəhər görkəmi almışdır.

Yanvarın 23-də Babək qəsəbəsində avtomobil yolu, Babək Rayon Mərkəzi Xəstəxanasının və Tarix-Diyarşünaslıq Muzeyinin binaları istifadəyə verilmişdir.

## Babək qəsəbəsində avtomobil yolları yenidən qurulmuşdur

Muxtar respublikada magistral yollarla yanaşı, şəhər və rayon mərkəzlərinin avtomobil yolları da yenidən qurulur. Ötən ildən başlayaraq Babək qəsəbəsinin Heydər Əliyev prospektində və qəsəbədaxili avtomobil yollarında əsaslı yenidənqurma işləri aparılmışdır.

Yanvarın 23-də avtomobil yolunun açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində çıxış edərək demişdir: "Hər bir yaşayış məntəqəsinin abadlığı onun yolundan başlayır. Çünki abad yol insanların rahatlığının, ümumilikdə isə ölkənin inkişafının göstəricisidir. Bu gün muxtar respublikamızda aparılan quruculuq işləri çərçivəsində yolların abadlaşması, yenidən qurulması diqqət mərkəzində saxlanılır. Babək qəsəbəsində də avtomobil yolları yenidən qurulmuş, 6,4 kilometr məsafədə yol genişləndirilərək asfalt örtük salınmışdır".

Ali Məclisin Sədri yolun istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, Babək qəsəbəsinin Heydər Əliyev prospektində 2850 metr və qəsəbədaxili 3550 metr yol yatağı genişləndirilmiş, asfalt örtük salınmışdır. Yenidənqurma işləri zamanı 1 suötürücü qurğu və 3 su keçidi tikilmiş, 102 müasir işıqlandırma sistemi quraşdırılmışdır. Yaradılan şərait avtomobillərin və piyadaların təhlükəsiz və rahat hərəkətinin təmin olunmasına imkan verəcəkdir.



## Babək Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışı olmuşdur

Yanvarın 23-də Babək Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov çıxış edərək demişdir ki, muxtar respublikada səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması göstərilən tibbi xidməti keyfiyyətcə daha da yaxşılaşdırmış, ixtisaslı kadrların hazırlanması vətəndaşların sağlamlığının qorunması işində əsaslı dönüş yaratmışdır. "Heydər Əliyev ili" olan 2013-cü ildə, ümumilikdə, muxtar respublikada 20 səhiyyə müəssisəsi tikilmiş, 2 tibb müəssisəsi isə yenidən qurulmuşdur. Bu gün Babək Rayon Mərkəzi Xəstəxanasının yeni binasının istifadəyə verilməsi də rayonda səhiyyə xidmətinin səviyyəsini xeyli yüksəldəcəkdir. Niyazi Novruzov yaradılan şəraitə görə səhiyyə işçiləri adından minnətdarlığını bildirmişdir.

Tibb bacısı Gülnar Əliyeva demişdir ki, Babək Rayon Mərkəzi Xəstəxanasının binası rayon əhalisinə və tibb işçilərinə əvəzsiz töhfədir. Xəstəxanada ən müasir tibbi avadanlıqlar quraşdırılıb, nümunəvi iş şəraiti yaradılıb. Bunun müqabilində tibb işçiləri göstərilən qayğıya öz əməli işi ilə cavab verəcək, əhalinin sağlamlığının keşiyində dayanacaqlar.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək Rayon Mərkəzi Xəstəxanasının yeni binasının istifadəyə verilməsi münasibətilə sakinləri və kollektivi təbrik edərək demişdir: "Bu gün ölkəmizdə səhiyyənin inkişafına hərtərəfli qayğı göstərilir. Ölkəmizdə, eləcə də muxtar respublikamızda səhiyyə sahəsində həyata keçirilən tədbirlər nəticəsində təhlükəli yoluxucu və infeksion xəstəliklərin qarşısı alınmış, bu xəstəliklərin statistikasında azalma olmuş, ana və uşaq ölümləri minimuma endirilmişdir. Bütün bunlara yaradılan müasir infrastrukturla yanaşı, həm də tibb işçilərinin səyi nəticəsində nail olunmuşdur". Ali Məclisin Sədri muxtar respublikada bu işlərin görülməsində əməyi olan səhiyyə işçilərinə təşəkkürünü bildirmişdir.

Qeyd olunmuşdur ki, Babək rayonunda 70 mindən çox əhaliyə 1 Mərkəzi Xəstəxana, 1 Gigiyena və Epidemiologiya Mərkəzi, 2 kənd sahə xəstəxanası, 14 həkim ambulatoriyası və 16 feldşer-mama məntəqəsi tərəfindən tibbi xidmət göstərilir. Bu səhiyyə müəssisələrində 43 həkim, 227 orta və 207 kiçik tibb işçisi çalışır. Bu gün istifadəyə verilən Babək Rayon Mərkəzi Xəstəxanasında əhaliyə nümunəvi tibbi xidmət göstərilməsi üçün lazımi şərait yaradılmışdır. Xəstəxananın 4 şöbə və 1 bölməsində tibbi xidmətin bütün sahələri üzrə müayinə və müalicə işləri həyata keçiriləcəkdir. Həkimlər yaradılan bu şəraitdən səmərəli istifadə etməli, xəstələr hərtərəfli tibbi xidmətlə təmin olunmalıdırlar.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Səhiyyə xalqımızın sağlamlığı və gələcəyidir"*** fikrini xatırladaraq demişdir ki, bu gün ölkəmizdə aparılan səhiyyə islahatları "sağlam həyat, sağlam gələcək" prinsipi üzərində qurulmuşdur. ***"İnsan sağlamlığı bizim üçün əsas məsələdir"***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda səhiyyə infrastrukturu tamamilə yenidən qurulmuş, bu sahənin inkişafı məqsədilə dövlət proqramları qəbul edilmişdir. Həmçinin ölkəmizdə ixtisaslı həkim və tibb işçilərinin hazırlanması, səhiyyə islahatlarının genişləndirilməsi əhalinin sağlamlığının etibarlı qorunmasına səbəb olmuşdur. Çünki Azərbaycanda inkişafın əsas hərəkətverici qüvvəsi olan dövlət-xalq birliyi vardır.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına və Babək Rayon Mərkəzi Xəstəxanasının muxtar respublikanın qabaqcıl səhiyyə ocaqlarından birinə çevriləcəyinə əminliyini bildirmiş, kollektivə işlərində uğurlar arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra binaya baxış olmuşdur.

Ardı 2-ci səhifədə





Bildirilmişdir ki, 4 mərtəbədən ibarət olan xəstəxanada poliklinika, ümumi stasionar, ginekologiya və doğuş, təcili və təxirəsalınmaz yardım şöbələri və hemodializ bölməsi fəaliyyət göstərir. Xəstəxananın şöbələrində müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi, cərrahiyyə əməliyyatlarının aparılması üçün hər cür şərait yaradılmışdır.

Orijinal memarlıq üslubunda inşa olunan binanın birinci mərtəbəsində qəbul-qeydiyyat, stomatoloji kabinələr, aptek, ginekologiya və doğuş şöbəsi, hemodializ bölməsi, rentgen, təcili və təxirəsalınmaz yardım şöbəsi üçün otaqlar yerləşir. Hemodializ bölməsində yaradılan şərait imkan verəcəkdir ki, böyrək xəstəliklərindən əziyyət çəkənlər və hemodializ aparatından mütəmadi istifadə edənlər müalicə üçün rayondan kənara üz tutmasınlar. Bölmədə 2 ədəd hemodializ, osmos və qranumiks aparatları, eləcə də digər tibbi avadanlıqlar quraşdırılmışdır. Ginekologiya və doğuş şöbəsində yenidoğulmuşların intensiv müalicəsi üçün inkubator küvez və fizioloji sarılığı müalicə etmək üçün fototerapevtik işıqlandırıcı vardır.

Poliklinika və stasionar şöbələr binanın ikinci mərtəbəsində yerləşir. Poliklinika şöbəsi üçün ayrılan otaqlarda ultrasəslə müayinə, exokardioqrafiya, portativ və stasionar elektrokardioqrafiya aparatları, stasionar və portativ rentgen aparatları, oftalmoskop və LOR müayinə alət dəsti quraşdırılmışdır. Burada reanimasiya, cərrahiyyə və əməliyyat üçün palata və otaqlar ayrılmışdır. Reanimasiya bölməsində yerləşən palatalarda süni tənəffüs aparatlarının, defrilyatorun, çarpayıyanı monitorların və



ilk yardım ləvazimatlarının olması səhiyyə ocağında ağır xəstələrin müalicəsinə imkan verəcəkdir. Əməliyyat otağı narkoz aparatı, sorucu, kiçik və böyük cərrahi avadanlıqlar dəsti ilə təchiz edilmiş, antibakterial havalandırma sistemi quraşdırılmışdır.

Üçüncü mərtəbədə isə stasionar şöbənin terapiya və pediatriya bölmələri üçün palatalar, eləcə də inzibati hissə üçün otaqlar ayrılmışdır. İnzibati bölmədə proyektorla təmin edilmiş iclas zalı, kitabxana və kompüter otağı fəaliyyət göstərəcəkdir. Buradakı kompüterlərin hər biri muxtar respublikanın səhiyyə müəssisələri arasında yaradılan lokal şəbəkəyə qoşulmuşdur. Bu da xəstəxanada aparılan müayinə və müalicələrin nəticələrini avtomatik olaraq mərkəzə və digər səhiyyə müəssisələrinin elektron məlumat bazasına ötürülməsinə və elektron arxivdə saxlanılmasına imkan verəcəkdir.

Zirzəmidə laboratoriya, fizioterapiya, yoluxucu xəstəliklər üçün izolyator, morq, camaşırxana, yeməkxana və qazanxana istifadəyə verilmişdir. Tibb ocağının laboratoriyasında hemotoloji, biokimyəvi, immunofermenttipli avtoanalizatorlar, fizioterapiya kabinəsində isə ultrasəs terapiya, elektroterapiya, solyuks, maqnitoterapiya və digər cihazlar qoyulmuşdur.

Bina ilə tanışlıqdan sonra həkimlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, bu gün muxtar respublikanın şəhər, rayon və kənd yaşayış məntəqələrində müasir avadanlıqlarla təmin olunan səhiyyə müəssisələrinin istifadəyə verilməsi əhalinin keyfiyyətli tibbi xidmətlə təminatına hesablanmışdır. Çünki səhiyyə islahatları ölkənin gələcəyinə xidmət edir. Yaradılan şərait səhiyyə işçiləri qarşısında mühüm vəzifələr qoyur. Hər bir həkim və tibb işçisi, ilk növbədə, öz bilik və təcrübəsini artırmalı, səhiyyə maarifi işi genişləndirilməli, xəstəliklərin qarşısının alınması məqsədilə profilaktik tədbirlər aparılmalı, uşaqlar arasında peyvənd və müayinə işi müntəzəm davam etdirilməli, gigiyenik qaydalara xüsusi diqqət yetirilməlidir.

Həkim Hüseyn Niftəliyev yaradılan şəraitə və göstərilən qayğıya görə tibb işçiləri adından minnətdarlığını bildirmişdir.

Binanın həyətində abadlıq işləri aparılmış, müasir işıqlandırma sistemi qurulmuş, dayanacaq yaradılmış, xəstəxanaya “Mersedes-Benz” markalı ilkin tibbi yardım avtomobili verilmişdir.

# Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyinin binası yenidən qurulmuşdur





Yanvarın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyinin binasında yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, qədim tariximizin və mədəni irsimizin öyrənilməsində, gələcək nəsillərə çatdırılmasında tarix-diyarşünaslıq muzeylərinin mühüm rolu vardır. Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1981-ci ildən fəaliyyət göstərir. Hazırda muzeyin fondunda ən qədim zamanlardan müasir dövrədək tarix, mədəniyyət, etnoqrafiya və arxeologiyaya aid 3884 eksponat qorunub saxlanılır.

Əsaslı şəkildə yenidən qurulan muzey binası ekspozisiya zalı, fond və iş otaqlarından ibarətdir. Binada işçilərin fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. İşıqlı və geniş ekspozisiya zalında rayon sənətkarlarının əl işləri, daş, tunc, mis dövrlərini əks etdirən eksponatlar, qədim musiqi alətləri, milli geyimlər, bədii tikmələr, tətbiqi sənət nümunələri, zərgərlik, misgərlik, dulusçuluq məmulatları, bəzək əşyaları, toxuculuq alətləri, xalçalar, rəsm əsərləri, fotoşəkillər və sənədlər olmaqla, 300-dən çox eksponat nümayiş etdirilir. Burada tarixin müxtəlif dövrlərində əhali tərəfindən istifadə edilən pul nümunələri və məişət əşyalarının nümayiş etdirilməsi muzeyə gələnlərdə böyük maraq doğuracaqdır.

Ali Məclisin Sədri ümumtəhsil məktəbləri ilə əlaqələrin qurulması və şagirdlərin muzeyə cəlb edilməsi, tarix dərslərinin burada tədrisi, eləcə də fondun yeni eksponatlarla zənginləşdirilməsi barədə tapşırıqlar vermişdir.

* * *

Babək qəsəbəsində bir sıra abadlıq işləri də görülmüş, rayon mərkəzində 1941-1945-ci illər müharibəsi və Azərbaycan Vətən müharibəsi şəhidlərinin xatirəsinə abidə ucaldılmışdır. Bununla yanaşı, 2000 metr fiber-optik, 3110 metr yeraltı elektrik xətti və 200 metr qaz xətti çəkilmiş, 650 metr hasar tikilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Sənayeləşmə: iqtisadi inkişafın gələcək yolu

***"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu fikrini indi inkişaf və tərəqqi dövrünü yaşayan ölkəmizin simasında daha yaxşı dərk edirik. Bu inkişafın fövqündə uğurla addımlayan Naxçıvan Muxtar Respublikası isə əldə edilən müsbət nəticələrə görə iqtisadi intibahın yüksək zirvələrini fəth etməkdədir. Müasir dünyada inkişaf etmiş və ya etməkdə olan ölkələrin statistikasına nəzər salsaq, iqtisadiyyatda daha çox sənayeləşmənin payının çox olduğunu görərik. Təbii ki, hər ölkənin sənaye payında onun yeraltı və yerüstü sərvətlərinin, düzgün və gələcəyə hesablanmış məqsədyönlü planlarının mümkün əsaslarla istifadə edilməsi mühüm yer tutur.***



Tarixən zəngin təbii sərvətlərə malik Naxçıvan Muxtar Respublikasının iqtisadi imkanlarından ötən əsrin sonlarınadək yetərincə istifadə olunmamışdır. Əslində, ötən əsrin sonlarınadək müəyyən qismi istifadə olunsa da, bu, sovet planlaşmasının prinsipinə uyğun qurulmuşdu. Necə deyərlər, xalq öz milli sərvətlərindən yalnız "maaş" qismində və həcmində yararlana bilərdi. Sovet dövründə sənaye müəssisələrinin böyük əksəriyyəti Rusiya ərazilərinə düşdüyündən ətraf respublikalarda, xüsusilə Azərbaycanda yalnız aqrar sahələrin inkişaf etdirilməsi "məqsədəuyğun" sayılırdı, əgər buna da isti münasibətlə yanaşılardısa. Yalnız xalqımızın dahi oğlu, ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonra ölkəmizin gələcək iqtisadi inkişafı üçün böyük addımlar atıldı. Azərbaycanın, sadəcə, bir aqrar ölkə olmadığını və burada yaradılacaq sənaye müəssisələrinin də neft emalı müəssisələrindən ibarət olmayacağını Kremlə hər vəchlə anlatmağa çalışan dahi şəxsiyyət ölkəmizdə, həmçinin muxtar respublikamızda xeyli sayda sənaye müəssisələrinin yaradılmasına nail oldu. Məsələnin digər tərəfi isə ondan ibarət idi ki, sovet dövründə bir sənaye məhsulunun ərsəyə gəlməsi üçün məhsulun ayrı-ayrı hissələrini müxtəlif respublikalarda istehsal edərək sonda onu bir mərkəzə toplamaqla əldə edirdilər ki, nə zaman hansısa bir respublika təkbaşına bir məhsulu istehsal etmək gücünə və imkanına malik olmasın. Dolayısı ilə "böyük sovet ailəsindən ayrı yaşamağın necə çətin olduğunu" dərk etsin. Təbii ki, böyük öndər bu siyasi quruluşun bütün tərəflərini mükəmməl bildiyinə görə müxtəlif sənaye müəssisələrinin yaradılmasının gələcəkdə müstəqilliyini bərpa edəcək Azərbaycanın qazancı olacağını bilirdi. Məhz bunun nəticəsidir ki, vaxtilə yaradılmış böyük sənaye müəssisələri müstəqilliyimizi bərpa etdikdən sonra müəyyən müddət işləməsə də, bir zamanlar burada işləyənlər üçün böyük təcrübə qazandırmış və ya sonralar həmin müəssisələrin yenidən qurulması zamanı əsas baza rolunu oynamışdı.

Ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların inkişafı ilə bağlı qəbul etdiyi dövlət proqramları, ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinin yaradılması, sahibkarlara hərtərəfli dövlət qayğısının göstərilməsi, onlara güzəştli şərtlərlə kreditlərin verilməsi və sair ölkəmizdə, həmçinin muxtar respublikamızda sənayenin inkişafına geniş imkanlar açmışdır. Əgər sovet dövründə muxtar respublikada 40 istehsal sahəsi var idisə, təkcə ötən il müxtəliftəyinatlı 122 istehsal və xidmət sahəsi yaradılmışdır. 2000-ci ildə Naxçıvan Muxtar Respublikasında 15 adda məhsul istehsal olunurdusa, bu gün 115 növdə, 459 çeşiddə ərzaq, 231 növdə, 529 çeşiddə qeyri-ərzaq məhsulu istehsal olunur. 332 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir. Qeyd edilən rəqəmlər onun da təsdiqidir ki, muxtar respublikada iqtisadi inkişafın tərkibində sənayeləşmə mühüm yer tutur. Yerli xammaldan səmərəli istifadəyə əsaslanan yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması və bu müəssisələrin sayının ildən-ilə artırılması Ümumi Daxili Məhsul istehsalında da müsbət nəticələrin artan xətt üzrə dinamikasını təmin etmişdir. 2013-cü ildə sənaye 29 faizlik payla Ümumi Daxili Məhsulun tərkibində ilk yerə sahib olmuş, istehsalın həcmi 2012-ci illə müqayisədə artaraq 863 milyon manata çatmışdır. Bunun da 93 faizə qədəri, yaxud 799 milyon manatdan çoxu özəl bölmənin payına düşür. Yeni sənaye müəssisələrinin yaradılmasında müasir texnologiyaların tətbiqi daxili tələbatı yüksəkkeyfiyyətli məhsullarla təchiz etməklə yanaşı, onların ixrac potensialını da artırmışdır. Bunun nəticəsidir ki, 2013-cü ildə 241 milyon manatlıq sənaye məhsulu ixrac edilmişdir.

Aydın məsələdir ki, sənaye istehsalının inkişaf etdirilməsində əsas məsələlərdən biri də bu istiqamətdə fəaliyyət göstərən sahibkarlara hərtərəfli dəstəyin göstərilməsidir. Xüsusilə səmərəli kredit mexanizmlərinin formalaşdırılması yeni istehsal müəssisələrinin yaradılmasında başlıca amillərdən biridir. Qeyd edək ki, 2013-cü ildə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən həyata keçirilən 42 milyon 800 min manata yaxın kreditləşmənin 17 milyon 305 min manatı, yaxud 40 faizi sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə verilmişdir. Sahibkarlıq subyektlərinə göstərilən maliyyə dəstəyinin 11 milyon 345 min manatı özəl bölmədə yeni istehsal sahələrinin yaradılmasına yönəldilmişdir.

Yuxarıda qeyd olunan rəqəmlər muxtar respublikanın sənaye mənzərəsini göz önünə gətirməklə yanaşı, bu sahədə ildən-ilə əldə edilən yenilikləri də özündə əks etdirir. Yeni qədəm qoyduğumuz 2014-cü ilin ölkə başçısı tərəfindən "Sənaye ili" elan olunması isə ölkəmizin, eyni zamanda muxtar respublikamızın sənaye potensialından hərtərəfli istifadəyə daha yeni baxış imkanları ortaya qoyur. Bu sahədə ən mükəmməl konsepsiyalardan biri də artıq neçə illərdir ki, sənayeləşmənin yalnız paytaxt Bakı şəhərini deyil, bütün bölgələri əhatə etməsidir. Sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sənaye parkları haqqında Əsasnamə"nin təsdiq edilməsi ilə bağlı 6 iyun 2013-cü il tarixli Fərmanı da muxtar respublikada sənayeləşmənin yeni, innovativ formada müasir texnologiyalara əsaslanaraq qurulmasının təminatçısı rolunda çıxış edir. Sənaye parklarının üstün cəhətlərindən biri də budur ki, istehsal müəssisələri ilə işləyən sahibkarlar torpaq əldə etmək üçün müraciət etmək, müvafiq ödənişi həyata keçirmək, ərazini uyğun istifadə üçün hazır vəziyyətə gətirmək, kommunal xidmətlərə giriş imkanı əldə etmək üçün əlavə vəsait ödəmək, tullantıların emalı sistemlərini təkmilləşdirmək, əraziyə münasib giriş strukturunu təmin etmək və sair problemləri yaşamır. Çünki sənaye parklarında biznesin təşkili dövlətin öz marağında olur. Bundan başqa, sənaye parklarında xidmətlər ortaq olduğundan onların ümumi dəyəri də sahibkarlar üçün aşağı olur. Bundan əlavə, muxtar respublikada indiyədək qurulmuş müəssisələrin istehsal məhsullarında yerli xammala üstünlük verilməsi, gələcəkdə də həm ərzaq, həm də qeyri-ərzaq məhsullarının istehsalı üçün əlavə yerli xammal mənbələrinin müəyyən edilməsi və bunun sənayedə tətbiqi sahibkarlar qaşısında geniş imkanlar açacaq. Çünki yerli xammalın həm keyfiyyət baxımından, həm də istehsal zamanı yarana biləcək digər xərclərin minimuma endirilməsində böyük rolu var. Bir sözlə, yeni infrastruktur sənayeləşmədə böyük üstünlüklərə malikdir ki, bu istiqamətdə də işlərin uğurla davam etdiriləcəyi şübhəsizdir. Bir vacib məsələni də qeyd etmək yerinə düşər. Bu gün inkişaf etmiş ölkələrdə sənaye bumu sürətli dinamika ilə müşahidə olunsa da, bu dinamikliyin gətirdiyi mənfi fəsadlar da az deyil. Bu fəsadlardan biri ətraf mühitin çirklənməsidir. Sevindirici və qürurverici haldır ki, muxtar respublikamızda ekoloji problemlərin qarşısının alınması üçün artıq illərdir, həyata keçirilən və bu gün də davam etdirilən tədbirlər öz nəticələrini verməkdədir. İldən-ilə muxtar respublikanın ərazilərində yaşıllıqların həcmi artırılır. Məsələn, təkcə ötən il 531 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 400 mindən çox ağac və gül kolu əkilmişdir. Mövcud tədbirlərin gələcəkdə də davam etdirilməsi muxtar respublikamızın dünyanın çox az ölkələrində rast gəlinən sənaye-turizm regionu (turizm sənayesi yox) kimi tanınmasına şərait yaradacaqdır. İnanırıq ki, muxtariyyətinin 90 illiyini qeyd edən Naxçıvan qədim tarixi, mədəniyyəti, ekoloji təmizliyi ilə fəxr etdiyi kimi, müasir sənayesi ilə də tarix yazacaq.

✍ **Səbuhi HƏSƏNOV**

# Muxtar respublikamızda enerji təhlükəsizliyi tam təmin olunub

***İnsanların saf suya, təmiz havaya, çörəyə əbədi ehtiyacı olduğu kimi, yanacaq və elektrik enerjisi də gündəlik ehtiyaclardandır.***



Amma neçə illər naxçıvanlılar həm elektrik enerjisi, həm də istilik sarıdan əzab-əziyyət çəkiblər. Bu yurdun insanları illərlə qışın sərt soyuğu ilə üz-üzə dayanıblar. Bəzən fasilələrlə verilən elektrik enerjisinə həsrətlə baxıblar, bəzən də körpələrinin soyuqdan donduğunu görüb onları xilas etmək üçün bir zamanlar kölgəsində əyləşdikləri, meyvələrini dərdikləri ağaclara balta çalıblar. Onları qırıb sobalarını yandırıblar ki, təki beşikdəki körpələr soyuqdan donmasınlar.

"Çətin günün ömrü az olar", deyib atalar. Bu çətin günlər naxçıvanlıların iradəsini qıra bilmədi. İradə və dözüm, bir də muxtar respublika sakinlərinin öz rəhbərinə inam hissi hər şeyə qalib gəldi.

Xatirimdədir, 1991-ci ildən 1992-ci ilə keçən qış çox sərt gəldi. Günlərlə elektrik enerjisinə möhtac qalan, təbii qazı isə çoxdan kəsilən bir məmləkətin halını sormayın. Hər tərəfdən blokadaya alınmış muxtar respublikada həyat iflic vəziyyətinə düşmüşdü. Yenicə Ali Məclisin Sədri seçilən ümummilli liderimiz Heydər Əliyev çıxış yolları axtarırdı. Bu qışla "döyüşdən" qalib çıxmaq, əhalini qışdan salamat çıxarmaq başlıca vəzifə idi. Günlərlə gözünə yuxu getməyən bu böyük idrak sahibi fikirləşirdi: Necə etməli? Kimə müraciət etməli? Çıxış yolu nədədir və bu, varsa, onu nəyin hesabına əldə etmək olar?

Naxçıvanın elektrik enerjisi ilə təminatında ulu öndərimizin dövlətçilik təcrübəsi köməyə gəldi. Naxçıvanın qapıları Türkiyəyə və İrana açıldı. Ulu öndərimizin bu siyasəti naxçıvanlıları xilas etdi. Ümummilli liderimiz bu barədə deyirdi: ***"Elektrik enerjisi yox idi, haradan alaq? Yenə də Türkiyə köməyimizə gəldi, elektrik xətləri çəkdilər. Mən onlardan xahiş etdim, elektrik xətti çəkdilər və bizə elektrik enerjisi verildi. Mən sonra İrana getdim. Mən oraya getməmişdən qabaq danışıqlar apardıq. İrandan Naxçıvana elektrik xətti çəkdik. Biz Naxçıvana Türkiyədən, İrandan elektrik xətləri çəkib gətirdik, çətin vəziyyətdən xilas olduq".***

Bəli, çox keçmədi ki, ulu öndərimiz naxçıvanlıların sabaha ölən ümidlərini işıqlandırdı. Görülən işlərlə kifayətlənmək olmazdı. Naxçıvanı qarşıdakı illərdə daha mühüm vəzifələrin həlli gözləyirdi. Bu, elektrik enerjisi probleminin daxili imkanlar hesabına ödənilməsi idi.

Ulu öndərimizin yolunu müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də fikri bu idi ki, Naxçıvan maksimum dərəcədə özünü bütün cəhətlərdən təmin edə bilsin. Dövlət başçısı demişdir: ***"Naxçıvanın əsas problemlərindən biri elektrik enerjisi məsələsidir. Bilirsiniz ki, buraya elektrik enerjisinin əsas hissəsi xaricdən gəlir. Naxçıvana 140 meqavat həcmində elektrik enerjisi verilir. Onun yalnız 20 meqavatı daxildə istehsal olunur. Qalanı isə Türkiyə və İrandan alınır. Bizim proqramlarımız, planlarımız var. Bu istiqamətdə işlər aparırıq ki, Naxçıvanı elektrik enerjisi ilə tam şəkildə təmin etmək üçün layihələr həyata keçirək. Qaz verilməsi məsələsi də gündəlikdədir. Bu istiqamətdə də işlər aparılır. Əlbəttə, əgər Naxçıvanla Azərbaycan arasında əlaqə olsaydı, buraya qaz vermək problem olmazdı... Belə olan halda, əlbəttə, başqa yollar arayırıq ki, bu məsələni də həll edək. Mən əminəm ki, bu məsələni həll edəcəyik. Bu məsələ də öz həllini taparsa, əlbəttə ki, Naxçıvanda yeni müəssisələrin yaradılması prosesi daha da sürətlə gedəcəkdir. Bizim məqsədimiz bundan ibarətdir".***

Ölkə rəhbəri cənab İlham Əliyevin işləyib hazırladığı böyük layihə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müvəffəqiyyətlə həyata keçirildi. Həyat öz axarına düşdü. Muxtar respublikamıza təbii qazın verilməsi bərpa olundu.

Bu sevindirici günlərdən biri də 2006-cı ilin dekabr ayına təsadüf etdi. Həmin gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Modul Elektrik Stansiyasının, Diaqnostika-Müalicə Mərkəzinin və sair obyektlərin açılışına gəlmişdi. Dekabrın 20-də naxçıvanlılar üçün xüsusi əhəmiyyət kəsb edən, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası işə salındı.

Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında turbinlərinn qazla işləmə rejiminə keçirilməsi nəticəsində burada 60 meqavat gücündə enerji istehsal etmək imkanları yaradılıb. Bu istiqamətdə həyata keçirilən tədbirlər ardıcıl surətdə davam etdirilib, Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə, Ordubad rayonu ərazisində Gilan çayı üzərində Biləv Su Elektrik Stansiyası və Şərur rayonunda Arpaçay üzərində Arpaçay Su Elektrik stansiyaları tikilərək istifadəyə verilib. Muxtar respublikamızın əldə etdiyi bu uğurları yüksək dəyərləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Son illər muxtar respublikaya təbii qazın nəqlinin bərpası, yeni elektrik stansiyalarının istifadəyə verilməsi energetika sektorunun inkişafına təminat yaratmış, Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyi təmin olunmuşdur. Bu, energetika sahəsində həyata keçirilən məqsədyönlü fəaliyyətin ən ciddi uğurlarından biridir".***

Bəli, Sovet hakimiyyəti illərində cəmi 1 elektrik stansiyası olan, qazlaşdırılması tam başa çatdırılmayan muxtar respublikada bu gün 6 elektrik stansiyası fəaliyyət göstərir. Naxçıvanın ən ucqar dağ kəndlərinə belə, təbii qaz xətti çəkilib.

"Hər qaranlıq gecənin bir işıqlı gündüzü var", deyən ata-babalarımızın bu müdrik fikri həqiqətə çevrilib. Reallaşdırılan layihələrdən sonra evlərimiz, küçə və eyvanlarımız işığa qərq olub. Çətin günlərin ömrünə son qoyulub. İdarə, müəssisə və təşkilatlarımızda çalışan işçilər üçün rahat və münbit şərait yaradılıb. Bir sözlə, muxtar respublikamızda həyat canlanıb.

Bu gün havaların soyuq keçməsi və şaxtanın qılınc kimi kəsməsi muxtar respublika sakinlərini əsla qorxutmur. Çünki diyarımızda elektrik enerjisi və istiliklə əlaqədar həyata keçirilən tədbirlər qış mövsümü üçün xarakterik olan problemləri aradan qaldırıb. Muxtar respublikanın emal və istehsal müəssisələri, ali, orta ixtisas və ümumtəhsil məktəbləri, səhiyyə və mədəniyyət ocaqları, digər infrastrukturlar fasiləsiz fəaliyyət göstərməkdə davam edirlər. İctimai yaşayış binalarında, fərdi mənzillərdə də elektrik enerjisi, istiliklə təminat yüksək səviyyədədir. Beləcə, həyat öz axarı ilə davam edir.

***P.S.** Onu da qeyd etmək lazımdır ki, gələcək perspektiv nəzərə alınaraq hazırda Şərur və Ordubad rayonlarında yeni elektrik stansiyalarının tikintisi aparılır ki, bu həm də muxtar respublikanın sosial-iqtisadi inkişafının dinamik xarakter aldığının göstəricisi, yurd yerinin inkişafına töhfələrini verən naxçıvanlılara, nəticə etibarı ilə, insan amilinə qayğının ifadəsidir.*

**Rövşən HÜSEYNOV**

# Naxçıvan ədəbi mühitini öyrənən elmi mərkəz

***Qədim dövrlərdən bu günədək Azərbaycanın ədəbi-bədii və ictimai-fəlsəfi fikir tarixində, həmçinin ədəbi mühitinin formalaşması və inkişafında müstəsna xidmətləri olan alim, filosof və söz sənətkarlarının həyatı, yaradıcılığı və fəaliyyətinin araşdırılması ədəbiyyatşünaslıq elmimizin qarşısında duran aktual problemlərdəndir. Həmin problemlərin içərisində Naxçıvan ədəbi mühitinin və bu mühitin yetişdirdiyi şəxsiyyətlərin taleyi, sənəti və çoxşaxəli fəaliyyətinin öyrənilməsi də xüsusi yer tutur. Bu vəzifəni yerinə yetirən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsi 10 ildən artıqdır ki, fəaliyyət göstərir.***

Məlumdur ki, sovet dövründə tədqiqatçılar, xüsusilə humanitar elmlər üzrə fəaliyyət göstərən araşdırıcılar o zamanın şəriksiz hakim qüvvəsi olan kommunist partiyasının ideoloji tələblərindən yan keçə bilməmişlər. Nəticədə, çoxəsrlik ədəbiyyat tariximiz və onun yaradıcıları haqqında tam və obyektiv elmi araşdırmaların aparılması mümkün olmamışdır. Lakin Azərbaycan müstəqillik əldə etdikdən sonra meydana çıxan yeni ictimai-siyasi şərait tədqiqatçıların həmin təzyiq və ideoloji basqılardan yaxa qurtarmasına əlverişli imkan yaratmışdır. Buna görə də şöbə əməkdaşları öz araşdırmalarını Azərbaycançılıq ideologiyası mövqeyindən aparırlar. Beləliklə, 2003-cü ildən 2013-cü ilin əvvəllərinədək şöbənin ilk müdiri akademik İsa Həbibbəylinin rəhbərliyi ilə bir çox elmi nailiyyətlər əldə edilmişdir. Bu müddət ərzində Naxçıvanın ədəbi-mədəni mühitini və yerli sənətkarlara məxsus olan klassik və müasir ədəbi irsi araşdırıb öyrənmək, təbliğ etmək, unudulmuş və tədqiqatdan kənarda qalmış bədii, publisistik və elmi əsərləri aşkara çıxarıb çap etdirmək şöbə əməkdaşlarının əsas tədqiqat hədəfi olmuşdur. Onlar müxtəlif dövlət arxivləri, dövri mətbuat, kitabxana və şəxsi arxivlərdən xeyli qiymətli məlumat və sənədlər toplayıb tədqiqata cəlb etmiş, elmi-nəzəri və bədii materiallar üzərində araşdırmalar aparmışlar. Həmin araşdırmaların nəticələri müxtəlif illərdə çap olunmuş məqalə, kitab və monoqrafiyalarda öz əksini tapmışdır. Bu baxımdan şöbə tərəfindən müəyyənləşdirilmiş "Taleyi və sənəti" seriyasından olan C.Məmmədquluzadə, E.Sultanov, M.Şahtaxtlı, M.S.Ordubadi, H.Cavid, Ə.Qəmküsar, M.C.Cəfərova həsr edilmiş kitabların böyük elmi əhəmiyyəti vardır. Bu seriyadan olan M.Araza aid kitab isə çap olunmaq üçün nəşriyyata təqdim edilmişdir. Həmin kitablarda, əsasən, Azərbaycanda ictimai-siyasi və elmi fikrin, maarifçilik hərəkatının, realizm və romantizm ədəbi cərəyanlarının yuxarıda adları çəkilən nümayəndələrinin həyatı, mühiti, çoxcəhətli fəaliyyəti, taleyi və sənətinə aid dəyərli elmi məqalələr toplanmışdır. Bu məqalələri müəlliflərin elmi axtarışlarının uğurlu nəticəsi hesab etmək olar.

Şöbə əməkdaşlarından Nigar Sadıqzadənin "XX əsrdə Naxçıvanda ədəbiyyatşünaslığın inkişafı" (2009), Fərqanə Kazımovanın "Professor Abbas Zamanovun həyatı və yaradıcılığı" (2012), Ramiz Qasımovun "Cəlil Məmmədquluzadənin yaradıcılığında "kiçik adam" obrazlarının ictimai-bədii funksiyası" (2012) adlı monoqrafiyaları onların uğurla müdafiə etdikləri fəlsəfə doktorluğu dissertasiyalarının nəticələrini əks etdirir. Müxtəlif illərdə yazılan və çap olunan bu tədqiqat işləri ədəbiyyatşünaslığımıza gətirdikləri yeniliklərlə diqqəti cəlb edir. Elmi işçi Aygün Orucovanın "Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı", kiçik elmi işçilərdən Əli Həşimovun "Tarixi nəsrdə Naxçıvan mövzusu: mərhələlər, problemlər, şəxsiyyətlər", Nərgiz İsmayılovanın "XIX-XX əsrlər Naxçıvan ədəbi mühitində Şərq və Qərb meyilləri", filologiya üzrə fəlsəfə doktorları Fərqanə Kazımovanın "Məmməd Cəfər Cəfərovun mühiti, müasirləri və elmi-ədəbi irsi", Nigar Sadıqzadənin "Xalq şairi Məmməd Araz yaradıcılığının poetikası" mövzularında fəlsəfə və elmlər doktorluğu dissertasiyalarının üzərində işləmələri də şöbənin elmi yaradıcılıq istiqamətlərinin necə geniş bir dairəni əhatə etdiyini göstərir. Buraya akademik İ.Həbibbəyli, F.Kazımova, R.Qasımov və N.Sadıqzadənin müəllifliyi, tərtibçiliyi və elmi redaktorluğu ilə çap olunan "M.T.Sidqi. Əsərləri" (2004), "Cəlil Məmmədquluzadə. Biblioqrafiya" (2005), "Mustafa Kamal Atatürk və Naxçıvan" (akademiklər İ.Həbibbəyli və İ.Hacıyevin müəllifliyi ilə, 2006), "Ə.Qəmküsarın ədəbi-tənqidi görüşləri" (2007), "Ə.Şərif. "Molla Nəsrəddin" necə yarandı" (2009), "M.C.Cəfərov. İnsanlar və talelər" (2009), "Azərbaycan ədəbiyyatının "Cüvəllağı"sı" (2012) kitab və monoqrafiyaları da əlavə etsək, şöbənin apardığı tədqiqat işlərinin səmərəli elmi nəticələri haqqında daha dolğun təsəvvürə malik olarıq.

Şöbə əməkdaşlarının beşillik plan işinə daxil olan araşdırmalarını gələcəkdə müxtəlif istiqamətlərdə aparılacaq geniş tədqiqatlar üçün ilkin elmi zəmin hesab etmək olar. Həmin araşdırmalarda XX əsrin əvvəllərində Naxçıvanda ictimai-mədəni mühit tarixi və ədəbi faktlar əsasında öyrənilmiş, bu regionda ədəbi cərəyanların formalaşmasının tarixi kökləri, ictimai-siyasi qaynaqları və mahiyyəti aydınlaşdırılmışdır. Bundan başqa, Azərbaycan satirik mətbuatının bayraqdarı "Molla Nəsrəddin" jurnalının ətrafında birləşən sənətkarların – mollanəsrəddinçi şairlərin klassik ənənələrə sadiq qalmaqla yanaşı, yeni inqilabi satirik poeziyanın təməlini qoymaları və bu istiqamətdə yaratdıqları əsərlərin həm mövzu, həm ideya-məzmun, həm də bədii xüsusiyyətlərinə aid orijinal mülahizələr irəli sürülmüş, C.Məmmədquluzadənin nəinki təkcə mollanəsrəddinçilər, həm də XX əsrin əvvəllərində yaşayıb-yaratmış bir çox şairlərə yol göstərən yeni şeir üçün zəruri hesab etdiyi ideya-estetik tələbləri konkret ədəbi-bədii materiallarla əsaslandırılmışdır. Ə.Qəmküsarın ədəbi-tənqidi görüşləri tədqiq olunmuş, M.Şahtaxtlının yaradıcılığı və ədəbi-ictimai fəaliyyəti yeni tədqiqat materialları əsasında öyrənilmiş, H.Cavidin XX əsrin əvvəllərində Azərbaycandakı ədəbi prosesdə yeri və rolu haqqında müəyyən elmi təsəvvür yaradılmış, Şeyx Məhəmməd Rasizadənin mühiti və müasirləri mövzusunda ilk araşdırmalar aparılmışdır. Xalq yazıçısı H.İbrahimovun "Əsrin onda biri" əsərinin Azərbaycan tarixi romanının inkişafındakı rolu, əsərdə Naxçıvanın tarixi və ədəbi mühiti ilə bağlı məqamlar araşdırılaraq üzə çıxarılmış – bir sözlə, ədəbi-ictimai fəaliyyəti və yaradıcılığı XIX-XX əsrlərə təsadüf edən naxçıvanlı şair, yazıçı, ədəbiyyatşünas və filosofların Azərbaycanın ədəbi və elmi fikir tarixindəki yeri və rolu öz həqiqi elmi qiymətini almışdır.

Şöbə əməkdaşları araşdırmalarının nəticələrini respublikanın "Naxçıvan", "Qobustan", "Azərbaycan", "Axtarışlar", "Filologiya məsələləri", AMEA Naxçıvan Bölməsinin "Xəbərlər", BDU və NDU-nun, həmçinin Türkiyə, Rusiya, Bolqarıstan, Fransa, Pakistan universitetlərinin "Elmi əsərlər", habelə xarici ölkələrin "Türkiyyat araştırmaları" (Türkiyə),"Kültür evreni" (Türkiyə), "Yol" (Türkiyə), "Kardeş kalemler" (Türkiyə), "Varlıq" (İran), "Mejdunarodnıy nauçnıy jurnal" (Rusiya), "Aktualnıye problemı qumanitarnıx yestestvennıx nauk" (Rusiya), "Molodoy uçyonıy" (Rusiya) kimi elmi və ictimai-ədəbi jurnallarında çap etdirmişlər. Bu da həmin tədqiqat işləri ilə nəinki təkcə Azərbaycan, həm də xarici ölkə alimlərinin yaxından tanış olmasına imkan yaratmışdır.

Şöbənin ən uğurlu elmi nailiyyətlərindən biri də akademik İ.Həbibbəylinin rəhbərliyi ilə çapa hazırlanan "Hüseyn Cavid Ensiklopediyası"dır. Nəşri 2014-cü ilə planlaşdırılan bu fundamental əsər müasir Azərbaycan ədəbiyyatşünaslığının ən sanballı elmi nailiyyətlərindən biri olacaqdır.

*Naxçıvan ədəbi mühitinin hərtərəfli və daha dərindən öyrənilməsi bundan sonra da qarşımızda duran ən mühüm vəzifələrdən olacaqdır. Əminliklə deyə bilərik ki, şöbənin əməkdaşları bu vəzifələrin öhdəsindən layiqincə gələ biləcəklər.*

**Fərman XƏLİLOV**
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyat şöbəsinin müdiri, filologiya elmləri doktoru***

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yazıçı-dramaturq Əli Əmirlinin "Ağa Məhəmməd Şah Qacar" ikihissəli dramı əsasında hazırladığı tamaşaya ictimai baxış olmuşdur. Bir sıra tarixi dramları uğurla səhnələşdirmiş teatrın bu tamaşası da maraqla qarşılanmışdır.***

# "Ağa Məhəmməd Şah Qacar" tamaşasına ictimai baxış



Daha çox tarixi reallıqlara əsaslanmaqla yazılmış bu tarixi dram tamaşaçını şöhrətpərəst və qəddar şah kimi tanınan Qacar obrazına başqa yöndən yanaşmağa dəvət edir. Tamaşada taleyin faciəsinə, yaxud istehzasına dözməyən bəxtsiz hökmdarın hakimiyyəti dövründə mürəkkəb və ziddiyyətli bir obraz olduğu görünür.

Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Səməd Canbaxşıyev Şah Qacar obrazını özünəməxsus formada təqdim etməyi bacarmışdır. Tamaşanın əvvəlində Qacar qəddarlığı ilə bərabər, müdrik və tədbirli obraz kimi təqdim olunur. Zəndilər tayfasının nümayəndəsi Kərim xan Zənd (Azərbaycan Respublikasının əməkdar artisti Əli Əliyev) qalib gələn Qacar zülmkarlığı, qəddarlığı ilə bərabər, ədalətini də göstərməyə çalışır. Kərim xan Zənd Qacarın müdrikliyini, tədbirliliyini görmədiyi üçün məğlub olur. Qardaşı Cəfərqulu xanı da (Xalq artisti Rza Xudiyev) öldürən hökmdar həm də taleyin amansızlıqlarını öz həyatında hiss etdiyi üçün bu ağrıları, iztirabları yaşayır.

Tamaşada diqqəti cəlb edən obrazlardan biri də Ceyran xanım (Xalq artisti Yasəmən Ramazanova) surətidir. Ceyran xanım oğlunun hökmranlıq taleyini və şəxsi əzablarını duyan, onu ruhdan düşməyə qoymayan mətin bir qadındır. Tamaşada hökmdarın anası ilə dialoqlarında, başqa obrazlarla söhbətlərində səsləndirilən fəlsəfi fikirlər, mükalimələr, həyat və ölüm, hakimiyyət və qəddarlıq haqqındakı düşüncələr tamaşaçının diqqətini cəlb edən məqamlardandır. Hökmdarın özünün də dediyi kimi, bütün əzablara son qoyan ölüm onu da yaxalayır. Xüsusilə bu ölüm Şuşanın mühasirəsi zamanı baş verir. Bu səhnə tamaşaçıda böyük maraq doğurur. Hakimiyyəti dövründə çoxlarını diz çökdürən, zəfərlər qazanan, sonda isə bir saray xidmətçisi (Azərbaycan Respublikasının əməkdar artisti Bəhruz Haqverdiyev) tədbirli və müdrik şahın həyatına son qoyur. Öz ədalət tərəzisini hər şeydən üstün tutan bəxtsiz hökmdarın ömrü, beləcə, başa çatır.

Tamaşadakı Şeyx Cəfər Tonkabuni (Azərbaycan Respublikasının əməkdar artisti Əbülfəz İmanov), Axund Hacı Babək (Azərbaycan Respublikasının əməkdar artisti Xəlil Hüseynov), Cahanbani (aktyor Səyyad Məmmədov) obrazları da aktyorların ifasında canlı və təbii görünürlər.

Tamaşada pantomim hərəkətləri və rəqsləri ilə diqqəti cəlb edən aktyorlardan Zakir Fətəliyev (taclı mim), Nurbəniz Niftəliyeva (qız mim), Elnur Rzayev (sevən mim) daha çox insan qəlbindəki duyğuları, xeyir və şər qüvvələri simvolik olaraq göstərirlər. Bu səhnədən aydın olur ki, insanı qəlbinin dərinliklərində gizlənən qəddarlıq və mərhəmət duyğuları, xeyir və şər qüvvələri idarə edir, onu yaxşı və ya pis əməllərə sövq edir.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Xalq rəssamı Hüseynqulu Əliyev, musiqi tərtibatçısı Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov, baletmeysteri isə Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Tamerlan Bağırovdur.

İctimai baxışdan sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının sektor müdiri Turqayə Əliyeva, Xalq artisti Rövşən Hüseynov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımov, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi Həsənəli Eyvazlı, yazıçı-dramaturq, filologiya elmləri doktoru Həmid Arzulu, filologiya üzrə fəlsəfə doktoru, şair Xanəli Kərimli, Xalq artistləri Kamran Quliyev və Rza Xudiyev çıxış edərək tamaşa haqqında fikir və rəylərini bildirmişlər.

**Əli RZAYEV**

***İtmişdir***

Zeynalov Samir Cavanşir oğlunun adına verilmiş AB-810311 seriya nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti Yavuz Axudluya, əzizi
**NATELLA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kollektivi iş yoldaşları Əli Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Dəri-Zöhrəvi Xəstəlikləri Dispanserinin baş həkimi Xədicə Qazıyeva və dispanserin kollektivi iş yoldaşları Şəmsiyyə İsmayılovaya, əzizi
**ELXANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru Səxavət Abbasov və birliyin kollektivi iş yoldaşları Əjdər Əliyevə, oğlu
**ƏKBƏRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun kollektivi iş yoldaşları Əli Qəhrəmanova, əzizi
**DAVUDUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun kollektivi Fərman Xəlilova, Zakir və Məmməd Rzayevlərə, əzizləri
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və maliyyə kafedrasının müdiri Teymur Abbasov və kafedranın əməkdaşları Məmməd Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun kollektivi Yavuz Axudluya və Nigar Sadıqzadəyə, əzizləri
**NATELLA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Akif Mərdanlı, dekan müavini Şəmil Mahmudov Məmməd Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin kollektivi Məmməd Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 98